**İş № 1 (103)-N\2019**

**Q Ə R A R**

**AA.BB.2019-cu il** **Bakı şəhəri**

Bakı Apellyasiya Məhkəməsinin cinayət kollegiyasının **hakimləri** - Murquzov İlqar Mustafa oğlunun sədrliyi və məruzəsi, Əhmədov Həsən Hüseyn oğlu və Məmmədov Habil Çingiz oğlundan ibarət tərkibdə, məhkəmə iclasının katibi – Sultanova Məmmədova Ayşən Ramiz qızının, Dövlət ittihamçısı-Azərbaycan Respublikası Baş prokurorluğu Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin apellyasiya və kassasiya instansiyası məhkəmələrində Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru Mahmudov Kamran Fikrət oğlunun, zərərçəkmiş şəxs X.X.X , məhkum Y.Y.Y və onun müdafiəçisi- Bakı şəhəri, 17 saylı Vəkil bürosunun vəkili Həsənova Sevinc Eldar qızının iştirakı ilə

**Bakı Ağır Cinayətlər Məhkəməsinin** (sədrlik edən hakim: **Mayıl Bayramov**)

N noyabr N ildə Bakı şəhərində anadan olmuş, Azərbaycan Respublikası vətəndaşı, orta təhsilli, sübay, fərdi əməklə məşğul olan, əvvəllər azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş, məhkumluğu ödənilməmiş, N qeydiyyatda olan və yaşamış, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 3 saylı İstintaq təcridxanasında saxlanılan **Y.Y.Ynun** barəsində olan

22 noyabr 2018-ci il tarixli **hökmündən** məhkum edilmiş **Y.Y.Y** tərəfindən verilmiş **apellyasiya şikayətinə** məhkəmənin binasında **açıq** məhkəmə iclasında baxaraq

**m ü ə y y ə n e t d i :**

Bakı Ağır Cinayətlər Məhkəməsinin 22 noyabr 2018-ci il tarixli **hökmü** ilə **Y.Y.Y** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin **126.1-ci maddəsi** ilə təqsirli bilinib, cəzasını **ciddi rejimli** cəzaçəkmə müəssisəsində çəkməklə və əvvəli **30 may 2018-ci il tarixdən** hesablanmaqla **04 (dörd) il müddətinə** azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir.

Məhkəmənin **hökmünə** əsasən **Y.Y.Y** 03 may 2018-ci il tarixdə səhər saat 07 radələrində Bakı şəhəri Xəzər rayonu Türkan qəsəbəsi ərazisində olan «Qardaşlar» marketin qarşısında tanışı **N.N.N** şəxsi münasibətlər zəminində yaranmış mübahisə zamanı, üstündə gəzdirdiyi (istintaqa məlum olmayan) kəsici-deşici xassəyə malik alətlə bir dəfə zərbə vuraraq, sonuncunun qəsdən sağlamlığına (döş qəfəsin sol yarısının qarın boşluğuna nüfuz edən daxili qanaxma, dalağın zədələnməsi və cərrahi olaraq xaric olunması- spelenoktomiya ilə nəticələnən), insan həyatı üçün təhlükəli olan ağır zərər vurmuşdur.

Məhkəmənin həmin **hökmündən** narazı qalan məhkum **Y.Y.Y** apellyasiya şikayəti verərək, cinayətin şəxsi münasibətlər zəminində əlbəyaxa zamanı baş verdiyi, zərərçəkmiş şəxsə bıçaqla xəsarət yetirmədiyi, dalaşarkən özünü müdafiə etdiyini, sonuncunu itələyərkən əməlində dolayı olaraq qəsdin olduğu, hazırda zərərçəkmiş şəxslə barışdığı, törətdiyi əməlindən peşman olduğu, təyin edilmiş cəzanın onun şəxsiyyətinə və cinayətin ağırlığına uyğun olmadığı, zərərçəkmiş şəxsin müalicəsi üçün bütün xərcləri ödədiyindən ona qarşı heç bir iddiası və şikayətinin olmadığı, ailəsində yeganə gəlir gətirən şəxs olması kimi cəzasını **yüngülləşdirən halların** olmasını nəzərə alaraq, məhkəmənin hökmünün dəyişdirilməsi və onun barəsində Cinayət Məcəlləsinin 62 və 70-ci maddələri tətbiq olunmaqla, ona təyin edilmiş azadlıqdan məhrum etmə cəzasının şərti məhkum etmə hesab edilməsi və ya ona təyin edilmiş cəzadan daha yüngül cəza təyin olunması barədə barəsində qərar qəbul olunmasını xahiş etmişdir.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin **397-ci maddəsinin** tələblərinə əsasən, apellyasiya məhkəməsi birinci instansiya məhkəməsinin işin faktiki hallarının müəyyən edilməsi, cinayət qanunu və bu Məcəllənin normalarının tətbiq edilməsinin düzgünlüyünü yoxlayır. Birinci instansiya məhkəməsinin müəyyən etdiyi faktiki hallar apellyasiya instansiya məhkəməsi tərəfindən yalnız apellyasiya şikayətinin və apellyasiya protestinin hüdudlarında yoxlanılır. Birinci instansiya məhkəməsinin cinayət qanunu və bu Məcəllənin normalarına riayət etməsi apellyasiya məhkəməsi tərəfindən apellyasiya şikayəti və protestinin dəlillərindən asılı olmayaraq yoxlanılır.

Bakı Apellyasiya Məhkəməsinin **cinayət kollegiyası** verilmiş apellyasiya şikayətin dəlillərini cinayət işinin materialları ilə birlikdə əlaqəli şəkildə araşdıraraq və cinayət prosesi iştirakçılarının

fikirləri və çıxışlarını dinləməklə hesab edir ki, verilmiş apellyasiya şikayəti təmin edilməməli, birinci instansiya məhkəməsinin **22 noyabr 2018-ci il tarixli hökmü** isə dəyişdirilmədən saxlanılmalıdır.

Məhkəmənin gəldiyi nəticədən fərqli olaraq cinayət təqibini həyata keçirə orqan tərəfindən **Y.Y.Y** cinayət əməli **xuliqanlıq niyyətilə** qəsdən zərərçəkmiş şəxs **N.N.N** sağlamlığa ağır zərər vurma kimi, yəni Azərbaycan Respublikası Cinayət Məcəlləsinin **126.2.4-cü maddəsi** ilə tövsif edilməklə ona ittiham elan edilmişdir.

**Birinci instansiya məhkəməsi** məhkum edilmiş **Y.Y.Ynun** cinayət əməlini Azərbaycan Respublikası Cinayət Məcəlləsinin **126.1-ci maddəsi** ilə tövsif edərkən, cinayət işi üzrə toplanmış və məhkəmədə tədqiq edilmiş aşağıda göstərilən sübutlara əsaslanmışdır.

Belə ki, **birinci instansiya məhkəməsi** cinayət təqibi ilə əlaqədar mühüm əhəmiyyətə malik olan halları araşdırmaqla və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tələblərinə uyğun olaraq cinayət işi üzrə dindirilmiş şəxslərin ifadələrini, istintaq və məhkəmə hərəkətlərinin protokollarını, ekspertiza rəylərini və digər sənədləri sübut növləri kimi qəbul edib həmin sübutlara və onların məcmusuna tam, obyektiv və hərtərəfli hüquqi qiymət verməklə belə nəticəyə gəlmişdir ki, **Y.Y.Y** əməlində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin **126.2.4-cü maddəsi** (xuliqanlıq niyyəti ilə qəsdən sağlamlığa ağır zərər vurma) ilə nəzərdə tutulan cinayət əməlin tərkibinin deyil, Cinayət Məcəlləsinin **126.1-ci maddəsi** ilə nəzərdə tutulan cinayət əməlinin, yəni qəsdən sağlamlığa ağır zərər vurmanın tərkib əlamətləri mövcuddur.

İbtidai istintaq orqanının belə **Y.Y.Yna** qarşı Cinayət Məcəlləsinin **126.2.4-cü maddəsi** ilə elan edilmiş ittihamda və həmin maddə ilə onun cinayət məsuliyyətinə cəlb edilməsi barədə qərarın özündə göstərilmişdir ki, 03 may 2018-ci il tarixdə N.N.Nlə həmin qəsəbə sakini **N.N.N** arasında **mübahisə** və **əlbayaxa** dalaşma olduqdan sonra zərərçəkmiş şəxsə həyat üçün təhlükəli olan ağır zərər vuran xəsarət yetirmişdir.

İş materiallarındakı sənədlərdən görünür ki, **Y.Y.Ynun** davranışında ictimai qaydalara, hamı tərəfindən qəbul olunmuş əxlaq normalarına açıq etinasızlıq halları, həmçinin özünü ətrafdakılara qarşı qoyma halları da olmamışdır. Həmin səbəblərlə bağlı ibtidai istintaq orqanın «cinayət işinin hissəvi xitam olunması və ittihamın dəyişdirilməsi və ona əlavələr edilməsi haqqında» **10 avqust 2018-ci il tarixli qərarı** ilə barəsində Cinayət Məcəlləsinin **221.3-cü maddəsi** (xuliqanlığın silah qismində istifadə olunan əşyadan istifadə edilməklə törədilməsi) ilə icraata xitam verilmişdir.

Beləliklə də, **birinci instansiya məhkəməsi** cinayət işi üzrə toplanmış və məhkəmədə tədqiq edilmiş çoxsaylı mötəbər sübutları əlaqəli şəkildə tədqiq edib əsaslı olaraq hesab etmişdir ki, **Y.Y.Ynun** şəxsi münasibətlər zəminində yaranmış mübahisə və qarşılıqlı dalaşma zamanı qəsdən sağlamlığa ağır zərər vurma ilə əlaqədar törətdiyi cinayət əməli **«xuliqanlıq niyyəti»** ilə deyil, onların aralarında olan hadisə **«şəxsi münasibətlər zəminində»** baş vermişdir.

Eyni zamanda, birinci instansiya məhkəməsi tərəfindən məhkum **Y.Y.Ynun** əməlinin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin **126.1-ci maddəsi** ilə düzgün və əsaslı tövsif olunmaqla qanuni olmasını məhkəmənin həmin hökmündən əməlin tövsifi ilə əlaqədar ümumiyyətlə dövlət ittihamçısı, zərərçəkmiş şəxs, məhkum və onun müdafiəçisi tərəfindən müvafiq olaraq apellyasiya protesti və ya apellyasiya şikayətlərinin verilməməsi təsdiq edir.

**Məhkəmə kollegiyası** öz növbəsində məhkum **Y.Y.Ynun** əməlinin tövsifi ilə əlaqədar **birinci instansiya məhkəməsinin** gəldiyi nəticəni tam əsaslı hesab edir.

Birinci instansiya məhkəməsində dindirilmiş **Y.Y.Y** öz ifadəsində bildirmişdir ki, ailəsi ilə Türkan qəsəbəsində yaşamış, 3 may 2018-ci ildə saat 07 radələrində siqaret almaq üçün evindən 200-300 metr aralıdakı mağazaya getmiş, uzaq qohumu satıcı N.N.N mağazada olmuş, həmin vaxt həmkəndlisi N.N.N N.N.N birlikdə avtomaşınla mağazaya satış üçün çörək gətirmiş, əvvəllər həmkəndlisi N.N.N arasında mübahisəsi olsa da, sonradan barışmışlar. Buna baxmayaraq, kəndə söhbət düşəndə onun dalınca artıq-əksik sözlər danışmış, ona görə mağazadan çölə çıxanda N.N.Nə «özünü yaxşı aparmırsan, mənim dalımca lazım olmayan sözlər danışırsan. Bu hərəkətin xoşuma gəlmir” deyib irad tutduqda N.N.N ona yenə artıq-əksik sözlər dediyindən aralarında mübahisə yaranmış, mübahisə əlbəyaxa davaya çevrilmiş, gücü çatmadığını görüb onu yumruqla vuraraq özündən kənara itələmiş, N.N.N yerə yıxılaraq xəsarət almış, nədən xəsarət almasının səbəbini dəqiq bilməmiş, ona elə gəlir ki, N.N.N yerə yıxılanda nəsə batmış, hadisəni N.N.N görmüş, hadisədən N.N.Nin xəbəri olmuş, N.N.N N.N.Nin idarə etdiyi, çörək daşıdıqları maşına oturub getmiş, özü isə hadisə yerindən uzaqlaşmış, həmin dalaşma cəmi 3-4 dəqiqə çəkmişdir. Bu hadisənin baş verməsinə səbəb əvvəllər N.N.Nlə aralarındakı ədavət və ziddiyyət olmuş, mübahisə və dalaşma şəxsi münasibətlər zəminində baş vermişdir. Həmin vaxt onun üstündə və

əlində bıçaq olmamış, təxminən iki saatdan sonra ona N.N.Nin Sabunçu xəstəxanasına getdiyi və cərrahi əməliyyatı edildiyi məlum olmuşdur. Hazırda N.N.Nin müalicəsi başa çatmış, sonuncu ilə barışmış, N.N.Nnin ona qarşı şikayəti və tələbi yoxdur, əməlindən peşmandır.

Bununla yanaşı, **Y.Y.Y** məhkəmə iclasında ibtidai istintaqda verdiyi aşağıdakı məzmunlu ifadələrini inkar etmiş: «Qatlanmayan plasmas dəstəkli balaca meyvə bıçağını çıxarıb N.N.Nin qarnının sol tərəfindən bir dəfə vurmuş, bıçaq zərbəsindən sonra N.N.N ondan aralanmış, N.N.Nyə bıçaqla əlavə vurmamış, N.N.Nni qorxuzmaq üçün bıçaqla vurmuşdur. Başqa məqsədi olmamış, oradan uzaqlaşarkən bıçağı Türkan qəsəbəsi ərazisində tullamışdır.

Birinci instansiya məhkəməsində dindirilmiş zərərçəkmiş **N.N.N** 17 sentyabr 2018-ci ildə məhkəmədə verdiyi ifadəsində göstərmişdir ki, N.N.Nin idarə etdiyi Ford markalı yük avtomaşını ilə çörək sexində bişirilmiş çörəkləri satmaq üçün mağazalara daşımış, həmin işdə N.N.Nə kömək etmişdir. Bu köməyinin müqabilində hər gün üçün 8 manat və iki ədəd çörək almışdır. 03 may 2018-ci ildə saat 6 radələrində Binə qəsəbəsində olan çörək sexindən götürdükləri çörəkləri satmaq üçün Qala-Türkan yolunun kənarındakı «Qardaşlar» mağazasına saat 07 radələrində gəlmişlər. Mağaza satıcısı N.N.Nə 25 ədəd çörəyi aparıb təhvil vermiş, geri qayıdarkən mağazanın çöl tərəfində həmkəndlisi N.N.Nlə rastlaşmışdır. Əvvəllər N.N.Nla aralarında mübahisə olmuş, lakin sonradan barışmışlar. Salamlaşandan sonra N.N.N ona dedi ki, «Özünü yaxşı aparmırsan. Orda-burda mənim dalımca lazım olmayan sözlər danışırsan. Bu hərəkətlərin xoşuma gəlmir”. N.N.Nın bu sözlərindən əsəbləşib mübahisə edərək əlbəyaxa olmuşlar. N.N.N onu itələdikdə yıxılmış, həmin vaxt qarnının sol arxa tərəfindən iti əşya ilə vurulduğunu hiss etmiş, əli ilə bədəninin həmin hissəsinə toxunarkən əli qana bulaşmış, mübahisə və dalaşma N.N.Nın təqsirindən baş vermiş və təxminən 3-4 dəqiqə çəkmiş, səs-küyə mağazanın satıcısı N.N.N mağazadan çölə çıxmışdır. Xəsarət alandan sonra N.N.N avtomaşına oturub getmişlər. Türkan qəsəbəsindəki təcili yardımın işçiləri yaranın ciddi olduğunu deyib onu Sabunçu xəstəxanasına aparmışlar. Yarasından axan qan əynindəki köynəyini bulamış, köynəyi cırıb yarasından axan qanı kəsmək üçün istifadə etmiş, xəstəxada onun üzərində həkimlər əməliyyat aparmış, nəticədə zədələnmiş dalağı çıxarılmışdır. Hazırda N.N.N aralarında barışıq əldə olunmuş, sonuncunu bağışlayır. ona qarşı şikayəti və tələbi yoxdur.

Digər tərəfdən zərərçəkmiş **N.N.N** 15 oktyabr 2018-ci ildə məhkəmə istintaqında müdafiəçinin sualına cavabında bildirmişdir ki, Türkan qəsəbəsində yaşayan N.N.N mayın 3-də saat 7-də N.N.N dükanı qabağında onunla zarafat edərkən onu itələdikdə, yıxılıb yerdəki dəmir dirəyə dəymiş, dəmir sol böyrünə girmiş, istintaqdakı ifadəni oxumadan imza etmiş, N.N.N onu dəmir əşya ilə vurmamış, bərk itələdiyindən yerdə basdırılan dəmirə dəymişdir.

Birinci instansiya məhkəməsində dindirilmiş şahid **N.N.N** ifadəsində göstərmişdir ki, Türkan qəsəbəsinin girəcəyində sol tərəfdə atası İnqilab Quliyevin qarışıq mallar mağazası var, mağazada qardaşı Seymur işləyir və mağaza evlərinin həyətyanı sahəsində yerləşir. 03 may 2018-ci ildə saat 07 radələrində mağazaya həmkəndlisi N.N.N idarə etdiyi «Ford» tranzit markalı yük avtomaşını ilə digər həmkəndlisi N.N.Nlə birlikdə satış üçün çörək gətirmişlər. N.N.N çörəklə dolu latoku mağazaya təhvil verib mağazadan çıxdıqdan sonra mağazanın qarşısında səs-küy eşitmiş, çölə çıxanda N.N.Nlə N.N.Nin bir-biri ilə əl-qolla, qışqıra-qışqıra mübahisə etdiklərini görmüş, mübahisəli dalaşma nəticəsində N.N.Nin N.N.Ni bıçaqla vurduğu məlum olmuşdur. Hadisədən sonra N.N.N avtomaşının kabinəsində oturub N.N.Na öz narazılığını bildirmiş, N.N.Nlə N.N.Nın dalaşmamaları üçün N.N.N kənara çəkmiş və sonra N.N.N maşını sürüb getmişdir. N.N.N onun uzaq qohumu, N.N.N isə həmkəndlisidir. Onların arasında əvvəllər narazılıq və ziddiyyət olmuş, lakin barışmışlar. Təzədən hadisənin olması gözlənilməz olmuşdur.

Birinci instansiya məhkəməsində şahid qismində dindirilmiş **N.N.N** oxşar məzmunlu ifadə verərək, öz ifadəsində məhkəmədə dindirilmiş şahid **N.N.N** ifadəsində göstərilən xüsusatları bir daha təsdiq etmişdir.

Birinci instansiya məhkəməsində dindirilmiş şahid **N.N.N** ifadəsində bildirmişdir ki, 03 may 2018-ci ildə Türkan qəsəbəsində “Qardaşlar” mağazası qarşısında N.N.N N.N.N Mirzəyevi bıçaqla vurub xəsarət yetirməsi faktı ilə əlaqədar cinayət işi başlanmış, 31 may 2018-ci ildə müstəntiq tərəfindən şübhəli şəxs N.N.N ifadəsinin hadisə yerində yoxlanılması həyata keçirilmiş, fotoşəkillər çəkilmiş və protokol tərtib edilmişdir. Keçirilən istintaq hərəkətində müstəntiq, N.N.N və hal şahidləri ilə yanaşı, polis əməkdaları kimi özü və N.N.N iştirak etmişlər. İfadənin hadisə yerində yoxlanması zamanı N.N.N könüllü olaraq hadisənin necə baş verməsini müstəntiqə danışaraq birbaşa göstərmişdir.

Birinci instansiya məhkəməsində dindirilmiş ekspert **Surətov Yusif Cəbrayıl oğlu** ifadəsində göstərmişdir ki, cinayət işinin materiallarına əlavə edilmiş 29 may 2018-ci il tarixli 327 nömrəli rəy onun tərəfindən tərtib edilmişdir. Rəyə əsasən, N.N.Nnun bədənində aşkar edilən xəsarət-daxili qanaxma, dalağın zədələnməsi və cərrahiyə ilə xaric edilməsi (spelenoktomiya) ilə nəticələnmiş döş qəfəsinin sol yarısının qarın boşluğuna nüfuz edən bir ədəd deşilmiş-kəsilmiş yarasıdır. Həmin yara **deşici-kəsici** alət (ola bilsin bıçaq) təsirindən törənmiş, müddəti onun 03 saylı Kliniki şəhər xəstəxanasına müraciətindən az əvvəl olmaqla 03.05.2018-ci il tarixə və şəraitə uyğun, həyat üçün təhlükəli olan sağlamlığa **ağır** dərəcəli zərər vurmaya aiddir. Xəsarət ayaqüstə olduğu vaxt zərərçəkmişə deşici-kəsici iti alətlə yetirilmiş, bıçaqla yetirilməyə xarakterik xəsarətdir. Həmin xəsarət zərərçəkmiş şəxsin yıxılması zamanı və ya yıxılma zamanı hər hansı digər əşyaya dəyməsi ilə yarana bilməz. Bu səbəbdən, verdiyi həmin nömrəli rəyi bir daha təsdiq edir.

Birinci instansiya məhkəməsində tədqiq edilmiş **məhkəmə-tibbi ekspertizasının** 29 may 2018-ci il tarixli 327 nömrəli **rəyindən** görünür ki, **N.N.Nnun** bədənində aşkar edilmiş xəsarət-daxili qanaxma, dalağın zədələnməsi və cərrahiyə ilə xaric edilməsi (spelenoktomiya) ilə nəticələnmiş döş qəfəsinin sol yarısının qarın boşluğuna nüfuz edən bir ədəd deşilmiş-kəsilmiş yarası deşici-kəsici alət (ola bilsin bıçaq) təsirindən törənmiş, müddəti 03 may 2018-ci ilə uyğundur və həyat üçün təhlükəli olan sağlamlığa **ağır** dərəcəli zərər vurmaya aiddir (c-1, i.v. 46-49).

**Məhkəmə-psixiatrik ekspertizasının** 08 iyun 2018-ci il tarixli 921 nömrəli **rəyinə** əsasən, **N.N.N** hər hansı bir psixi xəstəliyin əlamətləri aşkar olunmur. Onda xasiyyətin psixopatik cizgiləri müəyyən edilir. İttiham olunan əməl dövründə hər hansı psixi xəstəlik və psixi fəaliyyətin müvəqqəti pozulması əlamətləri aşkar olunmamış, həmin dövrdə hərəkətlərinin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmək, onları idarə etmək iqtidarında olduğundan, ittiham olunan əməl barədə **anlaqlı** hesab edilmiş və hərəkətləri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin **21-ci maddəsinin** təsiri altına düşmür. Hazırda öz hərəkətlərini dərk etmək və onları idarə etmək iqtidarında olduğundan məcburi müalicəyə ehtiyacı yoxdur (c-1, i.v. 119-120).

**Birinci instansiya məhkəməsi** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin **124-cü maddəsinin** tələblərinə uyğun olaraq təqsirləndirilən şəxsin, zərərçəkmişin və şahidlərin ifadələrini məhkəmə ekspertizasının rəyləri ilə yanaşı, ibtidai istintaq və məhkəmə hərəkətlərinin protokollarını, o cümlədən "baxış keçirilməsi haqqında" 09 may 2018-ci il tarixli protokolu, "şübhəli şəxsin ifadəsinin yerində yoxlanılması haqqında" 31 may 2018-ci il tarixli protokolu, digər istintaq hərəkətlərinin protokollarını cinayət işi üzrə sübut növləri kimi qəbul etmişdir (c-1, i.v. 35-79).

**Birinci instansiya məhkəməsi** zərərçəkmiş **N.N.N** məhkəmə istintaqında məhkumun müdafiəçisinin suallarını cavablandırarkən, Türkan qəsəbəsində yaşayan N.N.N Quliyevin mayın 3-də səhər tezdən saat 7-də N.N.Nın dükanının qabağında onunla zarafat edərkən itələdiyindən yıxılaraq yerdə olan dəmir dirəyə dəyməsi nəticəsində dəmirin sol böyrünə girməsi, ibtidai istintaqda müstəntiqin yazdığı ifadəsini oxumadan imzalaması, N.N.N onu bərk itələdiyindən yerə yıxılıb yerdə basdırılan dəmirə dəyməsi, Y.Y.Y onu dəmir əşya ilə vurmaması barədə sonradan verdiyi ifadəsində irəli sürdüyü dəlillər iş üzrə toplanmış və məhkəmədə tədqiq edilmiş çoxsaylı mötəbər sübutlarla təkzib olunduğundan və **N.N.N** mənafeyinə müdafiə tərəfin təsiri altına verilmiş ifadə kimi qiymətləndirmişdir.

Eyni zamanda, **məhkəmə kollegiyası** məhkəmədə **zərərçəkmiş şəxsin** verdiyi ifadəsini bu hissədə və **Y.Y.Y** məhkəmə baxışında zərərçəkmişi itələdiyindən, sonuncunun yıxılaraq yerdə olan dəmir dirəyə dəyməsi nəticəsində dəmirin sol böyrünə girməsi və onu bıçaqla vurmaması barədə verdiyi ifadəsində irəli sürdüyü dəlillər onun özünün ibtidai istintaq zamanı verdiyi ifadələri ilə; zərərçəkmiş şəxsin ibtidai istintaq dövründə və məhkəmənin əvvəlində verdiyi ifadələri ilə; dindirilmiş çoxsaylı şahidlərin ifadələri ilə; məhkəmə-tibbi ekspertizasının rəyi və məhkəmədə dindirilmiş ekspertin ifadəsi ilə; iş üzrə toplanmış və məhkəmədə tədqiq edilmiş digər istintaq hərəkətlərinin protokolları ilə və başqa mötəbər sübutlarla **N.N.N** zərərçəkmiş şəxsə **bıçaqla** xəsarət yetirməsi kifayət qədər öz təsdiqini tapdığından zərərçəkmiş şəxsin böyrünə yıxılma nəticəsində dəmir dirəyin girməsi və bıçaqla vurulmaması barədə məhkum edilmiş şəxsin və zərərçəkmiş şəxsin məhkəmədə verdikləri ifadələrinə tənqidi yanaşır və onların məhkəmədə verdikləri həmin ifadələrində irəli sürülən dəlilləri yalnız məhkum **N.N.N** məsuliyyətinin yüngülləşdirilməsi məqsədi ilə hər biri tərəfindən irəli sürülən dəlillər kimi qiymətləndirir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin **90.7.10, 91.5.10** və **90.9-cu maddələrinin** tələblərinə görə, şübhəli və ya təqsirləndirilən şəxslər ifadə vermək, özünə və yaxın qohumlarına qarşı ifadə verməmək və ifadə verməkdən imtina etmək, Təqsirləndirilən şəxs və ya şübhəli şəxslər onlara qarşı irəli sürülən ittihamla əlaqədar izahatlar (ifadə) vermək və ya izahatlar

(ifadə) verməkdən, sənədləri imzalamaqdan imtina etmək hüququna malikdir. Habelə, cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını bilərəkdən çəkdiyi hallar istisna edilməklə, şübhəli və təqsirləndirilən şəxsin üzərinə verdiyi ifadəyə və ya izahata görə heç bir məsuliyyət qoyula bilməz.

Göstərilən **normaların** tələbləri isə ona dəlalət edir ki, şübhəli və ya təqsirləndirilən şəxslər istədiyi kimi özünün müdafiəsini mümkün olan və zəruri hesab etdiyi **vasitələrdən** istifadə edərək qurmaqla həyata keçirmək hüququna malikdir, yəni onun ifadə vermək və ya ifadə verməkdən imtina etmək, hər hansı bir sənədə imza etmək və ya imza etməkdən imtina etmək **vəzifəsi** deyil, **hüququdur** və buna görə onun hər hansı bir məsuliyyəti nəzərdə tutulmamışdır. Belə olan halda, onun istintaq və məhkəmədə hər hansı sənədi imzalamaqdan imtina etməsinə və ya etirafedici ifadə verməməsinə, ifadə vermək və yaxud ifadə verməkdən imtina etməsinə yalnız onun müdafiə hüququ kimi baxılmalı və bu kimi qəbul olunaraq qiymətləndirməklə nəzərə alınmalıdır.

Digər tərəfdən **məhkəmə kollegiyası** məhkum edilmiş **Y.Y.Y** barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 62 və ya 70-ci maddələrinin tətbiq edilib ona təyin olunmuş azadlıqdan məhrum etmə cəzasının şərti məhkum etmə hesab edilməsi və ya təqsirli bilindiyi maddənin sanksiyasının aşağı həddindən də az cəza təyin olunması və ya təyin edilmiş cəzadan daha yüngül cəza növü təyin edilməsi barədə verilmiş apellyasiya şikayətində irəli sürülən dəlillərlə aşağıda göstərilənlərə görə razılaşmır və həmin dəlilləri əsassız hesab edir.

Cinayət işinin materiallarında olan **sənədlərdən** görünür ki, **Y.Y.Y** əvvəllər: Bakı şəhəri Xəzər rayon Məhkəməsinin **13 aprel 2016-ci il tarixli hökmü** ilə az ağır cinayət əməli törətdiyinə görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin **234.1-ci maddəsi** ilə təqsirli bilinib, cəzasının əvvəli 05 yanvar 2016-cı il tarixdən hesablanaraq və cəzasını ümumi rejimli cəza çəkmə müəssisəsində çəkməklə **bir il müddətinə** azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir. Həmin məhkəmənin **04 iyul 2016-ci il tarixli qərarı** ilə onun barəsində Azərbaycan Respublikası Milli Məclisinin **20 may 2016-ci il tarixli qərarının 4-cü bəndi** tətbiq olunmaqla onun çəzasının çəkilməmiş qalan hissəsi **06 ay müddətə** azaldıldıqdan sonra, cəzasının sonu ilə həmin cəzasından **05 iyul 2016-ci il tarixdə** azad olunmuşdur (c-1, i.v. 45, 111-115).

**Birinci instansiya məhkəməsi** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin **18.1** və **83-cü maddələrinin** tələblərini rəhbər tutaraq, düzgün və əsaslı olaraq hesab etmişdir ki, **Y.Y.Y** məhkumluğu ödənilmədiyindən və götürülmədiyindən məhkumluğu olan şəxs hesab edilir və ona cəza həmin Məcəllənin **65.2-ci maddəsində** nəzərdə tutulmuş qaydalar üzrə təyin olunaraq, **cinayətlərin residivi** - onun cəzasını **ağırlaşdıran hal** kimi nəzərə alınmaqla yanaşı, təyin olunmuş cəzasını **ciddi rejimli** cəzaçəkmə müəssisəsində çəkməlidir.

**Birinci instansiya məhkəməsi** məhkum **Y.Y.Yna** təyin olunacaq cəza məsələsini müzakirə edərkən, **cinayətlərin residivini**- cəzasını **ağırlaşdıran hal** kimi nəzərə almaqla yanaşı, yaşayiş yeri üzrə müsbət xarakterizə olunmasını, cinayət əməlini qismən etiraf edib sübuta yetirilməsinə kömək etməsini, zərərçəkmiş şəxsin onu bağişlamasını və aralarında barışıq əldə olunmasını - onun **cəzasını yüngülləşdirən hallar** kimi nəzərə almışdır.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin **126.1-ci maddəsinin** sanksiyasında **3 ildən 08 llədək müddətinə** azadlıqdan məhrum etmə cəzasının təyin olunması nəzərdə tutulmuşdur.

**Birinci instansiya məhkəməsi** məhkum **Y.Y.Yna** azadlıqdan məhrum etmə cəzasının təyin edilməsi nəticəsinə gəlməsini onunla əsaslandırmışdır ki, şəxsiyyət əleyhinə olan **ağır cinayət** əməli törətməsini, əvvəllər qəsdən az ağır cinayət əməli törətdiyinə görə məhkum olunmasını, onun məhkumluğunun ödənilmədiyi və götürülmədiyini nəzərə almaqla hesab etmişdir ki, ona təqsirli bilindiyi maddənin sanksiyasının aşağı həddində azadlıqdan məhrum etmə cəzasının təyin olunması ədalətli, qanuna uyğun və məqsədə müvafiq hesab edilməlidir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin **8.1-ci maddəsinin** tələbinə əsasən cinayət törətmiş şəxs haqqında tətbiq edilən cəza və ya digər cinayət-hüquqi xarakterli tədbirlər ədalətli olmalıdır, yəni cinayətin xarakterinə və ictimai təhlukəlilik dərəcəsinə, cinayət əməlinin törədilməsi hallarına və cinayətin törədilməsində təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun olmalıdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 25 iyun 2003-cü il tarixli 04 saylı **qərarında** tövsiyə edilmişdir ki, təyin edilən cəza Cinayət Məcəlləsinin 8-ci maddəsinə görə əməlin xarakteri və törədilməsi şəraitinə, habelə təqsirkarın şəxsiyyətinə uyğun olmaqla ədalətli olmalıdır.

«İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında» 03 sentyabr 1953-cü il tarixli Avropa Konvensiyasının **6-cı maddəsinin** tələblərinə əsasən, hər bir şəxs onun mülki hüquqları və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı bir cinayət ittihamı irəli sürülərkən, mövcud

qanunvericilik əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmələr vasitəsi ilə ağlabatan müddət ərzində işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin **9.2-ci maddəsinə** əsasən, hər hansı bir şəxsə tətbiq edilən cəza və yaxud digər cinayət-hüquqi xarakterli tədbirlər cismani əzab vermə və insan ləyaqətini alçaltmaq məqsədi daşıya bilməz. Başqa sözlə, cəza **«talion»** prinsipinə, yəni təqsirləndirilən şəxsdən əvəz çıxmaq və ya qisas almaq niyyətinə xidmət etməməlidir. Hər bir halda «**ədalət**» prinsipi təqsirləndirilən şəxsə mərhəmətin göstərilməsini özündə ehtiva edir.

Həmin Məcəllənin **58.3-cü maddəsinin** tələblərinə əsasən, cəza təyin edilərkən, törədilmiş cinayət əməlinin xarakteri və ictimai təhlukəlilik dərəcəsi, təqsirkarın şəxsiyyəti və onun cəzasını yüngülləşdirən və ağırlaşdıran hallar, habelə məhkəmə tərəfindən təyin ediləcək cəzanın təqsirkar şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsiri nəzərə alınmalıdır.

Cinayət əməlini törətmiş şəxsə təyin ediləcək cəzanın məqsədindən bəhs edən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin **41.2-ci maddəsində** göstərilir ki, cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi, həm məhkumlar və həmcinin də başqa şəxslər tərəfindən yeni cinayət əməllərinin törədilməsinin qarşısını almaq məqsədi ilə tətbiq edilir.

Göründüyü kimi, **birinci instansiya məhkəməsi** məhkum **Y.Y.Y** cəza təyin edərkən, onun cəzasını ağırlaşdıran və yüngülləşdirən halların olub-olmaması məsələsini müzakirə etməklə yanaşı, törətdiyi və ağır cinayətlər kateqoriyasına aid edilən cinayətin xarakterini və ictimai təhlükəlilik dərəcəsini nəzərə almaqla, ona **ədalətli** cəza təyin etmişdir.

Beləliklə də, **məhkəmə kollegiyası** hesab edir ki, **birinci instansiya məhkəməsi** məhkum **Y.Y.Yna** cəza təyin edərkən cəza təyin etmənin ümumi prinsiplərini özündə əks etdirən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq normalarına əməl etmiş və «Məhkəmələr tərəfindən cinayət cəzaları təyin edilməsi təcrübəsi haqqında» Ali Məhkəməsi Plenumunun 25 iyun 2003-cü il tarixli 04 saylı Qərarının tövsiyyələrini nəzərə almaqla, məhkumun şəxsiyyətini, törətdiyi cinayətin xarakterini və ictimai təhlükəlilik dərəcəsini nəzərə almışdır.

Göstərilənləri nəzərə alaraq **məhkəmə kollegiyası** hesab edir ki, **Y.Y.Y** barəsində Cinayət Məcəlləsinin **62** və **70-ci maddələrinin** tətbiqi üçün müstəsna halların olmaması, şəxsiyyətini səciyyələndirən halları, habelə əvvəllər məhkum edilməsini, məhkumluğunun ödənilməməsini və götürülməməsini, əməlinin cinayətlərin residivini yaratdığından, təqsirli bilindiyi maddənin sanksiyasında nəzərdə tutulmuş 04 ildən aşağı müddətə cəzanın təyin edilməsinin buna imkan verməməsini nəzərə alaraq, onun tərəfindən verilmiş apellyasiya şikayəti təmin edilməməli və birinci instansiya məhkəməsinin 22 noyabr 2018-ci il tarixli **hökmü** dəyişdirilmədən saxlanılmalıdır.

Qeyd olunanlara əsasən və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin **398.1.1-ci maddəsinin** tələblərini rəhbər tutaraq, **cinayət kollegiyası**,

**q ə r a r a  a l ı r:**

Məhkum **Y.Y.Y** verdiyi **apellyasiya şikayəti** təmin edilməsin.

Bakı Ağır Cinayətlər Məhkəməsinin məhkum **Y.Y.Y** barəsində olan **22 noyabr 2018-ci il tarixli hökmü** dəyişdirilmədən saxlanılsın.

Qərar **elan olunduğu andan** dərhal sonra qanuni qüvvəyə minir.

**Qərardan** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin **410-cu maddəsində** göstərilən müddətdə Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına **kassasiya şikayəti** və ya **kassasiya protesti** verilə bilər.